**Məcburi küçkünlər üçün bayram sovqatı**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na uyğun olaraq, Vergilər Nazirliyinin nümayəndələri Ağcabədi rayonunda məskunlaşmış məcburi köçkünlərlə müntəzəm görüşlər keçirir, onlara bayram sovqatları çatdırırlar. Bu ənənənin davam olaraq nazirliyin rəhbər vəzifəli şəxsləri martın 16-da - Novruz bayramı ərəfəsində Ağcabədi rayonundakı Taxtakörpü və «Alman» qəsəbələrində məskunlaşmış məcburi köçkünlərlə görüşmüşlər.

Görüşdə Vergilər Nazirliyinin Aparatının rəhbəri Asif Cahangirov, Maliyyə-təsərrüfat idarəsinin rəis müavini Məhəmməd Balaqadaşov iştirak etmişlər. Tədbirdə çıxış edən Asif Cahangirov məcburi köçkünləri qarşıdan gələn bayram münasibəti ilə təbrik etmiş, vergilər naziri cənab Fazil Məmmədovun və nazirlik kollektivinin salamlarını onlara çatdırmışdır. Aparat rəhbəri dövlət başçısı tərəfindən qaçqın və məcburi köçkünlərə daim diqqət və qayğı göstərildiyini və bugünkü görüşün də Prezident İlham Əliyevin köçkünlərə qayğısının bir nümunəsi olduğunu diqqətə çatdırmışdır.

Görüşdə Laçın Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəbrayılov, Ağcabədi rayon icra hakimiyyəti başçısının birinci müavini Rövşən Əhmədov, Laçın rayonu Dambulaq kənd məktəbinin direktoru Maarif Əsədov, Laçın rayon Piçənid kənd orta məktəbinin müəllimi Əmirxan Zeynalov çıxış edərək Azərbaycan dövlətinə, Prezident İlham Əliyevin uğurlu siyasi fəaliyyətinə inamlarını ifadə etmiş, tezliklə doğma yurd-yuvalarına dönəcəklərinə inandıqlarını bildirmişlər. Çıxış edənlər onlara göstərilən qayğı və diqqətə, edilən yardımlara görə Vergilər Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildirmişlər.

Vergilər Nazirliyinin nümayəndələri Ağcabədi rayonu ərazisində Taxtakörpü, «Alman», Yuxarı Qiyamətdinli qəsəbəsi, Şuşa şəhəri, Şuşa şəhəri Mirzələr qış yatağı, Ağdam, Füzuli və Xocavənd rayonlarından olan məcburi köçkünlərlə söhbət edərək onların qayğıları ilə maraqlanmış, gətirdikləri bayram sovqatını məcburi köçkünlərə çatdırmışlar.

Vergilər Nazirliyinin nümayəndələri Ağcabədi rayonu ərazisində salınmış Laçın (Taxtakörpü) qəsəbəsində məskunlaşmış məcburi köçkünlərə də baş çəkmişlər.